

# Rəqs ustalarımızdan biri

*Əhsən RƏHMANLI,*
*tədqiqatçı, sənətşünaslıq üzrə fəlsəfə doktoru*

Azərbaycan rəqsləri milli-mifoloji düşüncədən gələn, folklor və epik ənənədən yaranan sənət növüdür. Milli rəqslərimiz bizim əbədi və mədəni taleyimizin daimi, əzəmətli və dayanıqlı bir sahəsidir. Peşəkar səhnə rəqsləri formalaşandan bu günə qədər xeyli uğurlu ifaçılarımız yetişib Azərbaycanın, post sovet məkanının, neçə-neçə ölkələrin səhnəsində rəqslərimizi mahircəsinə nümayiş etdiriblər. Bu dəfəki məqaləmizdə də onlardan birini sevimli, dəyərverən oxucular qarşısına çıxarmalı oluruq.

Namus Cahangir oğlu Zöhrabov 1959-cu il mayın 15-də Bakıda anadan olub. 1966-cı ildə 167 saylı ümumtəhsil məktəbin I sinfinə daxil olub və V sinfi burada tamamlayıb. 1972-1975-ci illərdə Bakı Xoreoqrafiya Məktəbində "Xalq rəqsləri artisti" ixtisası üzrə təhsil alıb. 1970-1972-ci illərdə Mərkəzi Pioner və Məktəblilər sarayında xalq artisti Böyükağa Məmmədovun rəhbərlik etdiyi "Cücələrim" rəqs ansamblında oynayıb. Bu ansamblla 1971-ci ildə Bolqarıstanda səfərdə olub. Böyükağa müəllim Ehtiyat Əmək Qüvvələri İttifaqında, 26-lar mədəniyyət sarayında, Fioletov klubunda rəhbərlik etdiyi özfəaliyyət rəqs ansambllarına Namusu da cəlb etmişdi. Bundan başqa Namus İ.Əbilov adına mədəniyyət evində Əməkdar artist Kamil Dadaşovun rəhbərlik etdiyi özfəaliyyət rəqs ansamblının da üzvü idi. B.Məmmədəov Namusu 8 saylı incəsənət təmayüllü internat məktəbdə çalışdığı xalq rəqsləri şöbəsinin məşqlərinə də cəlb etmişdi. N.Zöhrabov bu kolektivlərdə 1970-1974-cü illərdə rəqs qaydalarına çox yaxşı yiyələnmişdi. İstər B.Məmmədov, istərsə də K.Dadaşov N.Zöhrabovun rəqqas kimi yetişdiyini görürdülər. Onların inamı və ümidləri gələcəkdə mütləq mənada özünü doğrultmalı idi, doğrultdu da...

15 yaşlı Namusun yüksək rəqs istedadı nəzərə alınır və o, 1974-cü iln avqustunda Dövlət Mahnı Rəqs Ansamblına qəbul olunur. O zaman bu ansamblın baletmeysterləri Nailə Mahmudova və Qorxmaz Qurbanov, bədii rəhbər Telman Hacıyev idi. Nailə xanım Namusun rəqs bacarığını BXM-da görüb bəyənmiş və bu səbəbdən də o, kollektivə dəvət edilmişdi. Axı, N.Zöhrabov BXM-da səviyyəli dərs almış, rəqs sənətini mükəmməl öyrənmişdi. Həmin məktəbdə ona xalq rəqslərindən Böyükağa Məmmədov, klassik rəqsdən Tamara Aleksandrovna, Rüfət Zeynalov, xarakter rəqslərdən Lev Baqanoviç kimi mütəxəssislər dərs demişdi.

N.Zöhrabov Mahnı və Rəqs Ansamblında 1974-cü ilin dekabr ayına qədər çalışır. İşlədiyi müddətdə bu ansamblın baletmeysterlərinin əzmi nətcəsində ustad Əlbaba Abdullayevin quruluşları bərpa edilir, yeni proqram üzərində ciddi iş aparılıb ortaya qoyulur. Namus proqramdakı bütün kütləvi rəqslərdə bacarıq göstərir. Namusun istedadlı, enerjili, hündür boylu, qollu-qamətli rəqqas olduğunu görüb Dövlət Rəqs Ansamblına dəvət edirlər. N.Zöhrabov 1975-ci ilin yanvarından oktyabr ayına qədər bu ansamblda şalışır. Burada da yeni proqram hazırlanmışdı. Əslində, yeni və köhnə proqram üzərində mükəmməl iş aparılmışdı. Proqram təhvil verilən kimi Qarabağın bütün rayonlarında konsertlər verilmişdi. Namus bu ansamblda da bütün kütləvi rəqslərdə oynamışdı. Onun boyu hamıdan uca idi, oğlanlar qrupunda birinci dayanır, səhnəyə birinci çıxırdı.

Dağıstan Respublikasının "Ləzginka" Dövlət Rəqs Ansamblının bədii rəhbəri və baş baletmeysteri Tanxo İzrailov Azərbaycan Dövlət Rəqs Ansamblına quruluşlar hazırlaması üçün dəvət olunur. O, müəyyən mərhələlərdə Azərbaycanın ən istedadlı rəqqaslarını rəhbərlik etdiyi ansambla aparırdı. Tanxo Azərbaycan Dövlət Rəqs Ansamblında quruluşlar verdiyi zaman rəqqaslarla işləyərkən Namusun rəqsə münasibətini, yüksək oyununu görüb onu "Ləzginka" ansamblına cəlb edir. Namus ora gedərkən həmin dövrdə "Ləzginka"da da yeni proqram qurulurdu. Namus 1975-ci ilin oktyabr ayından 1977-ci ilin mayına qədər Dağıstanda çalışır və özünü doğruldaraq daim diqqət və tərif-lərlə qarşılanır. 1977-ci ildə Bakıya, doğmalara dəyməyə gələrkən Dövlət Rəqs Ansamblına da yollanır və sənət yoldaşlarına baş çəkir. Ansamblın bədii rəhbəri və baş baletmeysteri, SSRİ xalq artisti Leyla Vəkilova onunla söhbət aparır və deyr: "Elə yaxşı gəlmisən, sən burada lazımsan, qal burada bizdə işlə, vətəndə çalış, sən azərbaycanlısan, öz mədəniyyətimizə xidmət etməlisən". Qeyd etməliyik ki, Leyla xanım ansamblın üzvlərindən və ümumiyyətlə rəqs mütəxəssislərindən Namus Zöhrabov haqqında çox eşidibmiş.



Namusu dinlərkən: "Leyla Vəkilovanın tutarlı təklifi məni tərpətdi və mən 1977-ci ilin iyun ayından yenidən Rəqs Ansamblına qatılıb kütləvi rəqslərdə öz işimi gördüm". O, Dövlət Rəqs Ansamblının tərkibində Azərbaycanın bölgələrində, SSRİ-nin bütün respublikalarında çıxış etmişdir. N.Zöhrabov 1979-1981-ci illərdə 6 ay Bakıda Hərbi Hava Qüvvələri Alayında (PVO), sonra Tbilisidə Rabitə Alayında hərbi xidmət keçib. Onun xatirələrindən: "Gürcüstanda əsgərlik müddətində asudə vaxt olanda mütləq mənada özüm sərbəst olaraq rəqs hərəkətlərini yerinə yetirirdim. Əvvəllər 2 saat, sonralar isə 4 saat məşq edirdim ki, rəqs üçün formadan düşməyim. Hiss edirdim ki, zəhmətim hədər getmir, rəqs etmək imkanlarım öz yerini alır".

N.Zöhrabov hərbi xidmətdən Bakıya qayıdaraq doğma iş yerində, Dövlət Rəqs Ansamblında fəaliyyətini davam etdirir, ilk məşqlərdə hamını təəcübləndirəcək şəkildə iş göstərir. Elə təəssürat yaradır ki, sanki heç 2 il sənətdən uzaq düşməyib. Bəli, bu ağıllı, rəqsə bağlı, hünərli, məsuliyyətli adamın əsgərlikdəki məşqlərinin çox yaxşı nəticəsi olmuşdu, sənətə qayıdan kimi onun uğurlarına imkan yaratmışdı. Namus 1979-cu ildə Dövlət Rəqs Ansamblının tərkibində 1 ay Şimali Afrikanın Tunis ərəb ölkəsində səfərdə olub. O, bu ansambl ilə 1971-ci ildən 1982-ci ilə qədər həm Azərbaycanın, həm də keçmiş SSRİ-nin ən ucqar məkanlarına qədər gedərək konsertlərdə çıxış edib. Namus 1982-ci ildə Türkiyə səfərlərində də öz oyunu ilə diqqət çəkib. Konsert İstambulda verillirdi. Orada N.Zöhrabovun "İgidlər" rəqsindəki solo ifası böyük marağa səbəb olub. Doğrudan da Namus bu rəqsdə daha şux, cürətli, şücaətli, cəsur, möhtəşəm oyun nümayiş etdirmişdi. Onun dırnaq üstə hərəkətləri cox gözəl təəssürat yaradırdı.

Dövlət Rəqs Ansamblının çıxışı Türkiyədə o qədər yüksək səviyyədə qarşılanmışdı ki, böyük bir şirkət rəhbəriliyi əlavə, kommersiya şərtləri ilə 5 gün də İstambulda konsert verilməsinə razılıq almışdı. Bu konsertlərə Türkiyənin əksər yerlərindən, xüsusilə Qars şəhərindən çox tamaşaçılar gəlmişdi. Bilirik ki, Qarsda Azərbaycan türkləri yaşayır. Qarslılar bizim rəqsləri hərarət, böyük məhəbbət və coşqu ilə qarşlayırdılar. Onlar milli rəqslərimizlə, sənətkarlarımızla fəxr etdiklərini dilə gətirirdilər.

N.Zöhrabov Fransa (1984), Avstriya (1986), Finlandiya (1987), Hollandiya (1988) ölkələrində rəqs sənətimizi layiqli şəkildə tərənnüm edib. ABŞ-a səfər onun üçün xüsusilə maraqlı olub. Mədəniyyət Nazirliyinin xətti ilə təşkil olunan bu səfər 1 aylıq idi. Heyət SSRİ xalq artisti Zeynəb Xanlarova, onun öz instrumental qrupunun beş üzvü, SSRİ xalq artisti Polad Bülbüloğlu, xalq artisti Arif Babayev və Rəqs Ansamblının beş ifaçısından ibarət idi. Rəqs qrupunun tərkibində Namusla birgə həyat yoldaşı Rəna Zöhrabova (1962-1994) da çıxış edirdi. Bu yaddaqalan, xatirələrlə dolu səfər 1988-ci ildə olub.

Sovet dövlətinin başçısı L.İ.Brejnev Bakıya gələndə Respublika Sarayında dövlət konserti keçirildi. Burada çıxış edən incəsənət ustaları arasında Dövlət Rəqs Ansamblı da var idi. Proqrama "İgidlər" rəqsi də salınmışdı. Azərbaycan SSR-in Mədəniyyət Nazirinin müavini Məmməd Zülfüqarovun tapşırığı və tələbi ilə adı çəkilən rəqsdə birinci solonu N.Zöhrabov oynamışdı. M.Zülfüqarov işə qarışmasaydı, baletmeysterin hazırlığı ilə bu solonu başqa adam oynamalı idi. Namus ö dövrdə artıq kamil bir solist kimi tanınırdı. Namus duet-rəqs "Naeləmə"də də maraqlı oyun nümayiş etdirirdi. Bu məşhur rəqsdə onun tərəf-müqabilləri əvvəl xalq artisti Afaq Məlikova, sonra isə Rəna Zöhrabova olub.

1984-cü ildə baleteyster Fərhad Vəliyev Namusun rəqs göstəricilərini, geniş imkanlarını nəzərə alaraq quruluş verdiyi bir neçə rəqsdə onunla maraqlı sololar hazırlamışdı. Tərkibi folklor nümunələrindən ibarət olan "Cayçı" rəqsi bu qəbildəndir.

N.Zöhrabov 1989-cu ildə İraqda keçirilən Azərbaycan mədəniyyəti günlərində də çıxış edib. Buraya böyük heyət-beş rəqqas, müğənnilər, instrumental ifaçılar, vəzifəli şəxslər, şeyx Allahşükür Paşazadə də getmişdi. Əvvəldən nəzərdə tutulduğu kimi səfər zamanı Kərbəla ziyarəti də baş tutmuşdu.

1990-cı və 1993-cü il Türkiyə səfərlərində və Dövlət Rəqs Ansamblının 1991-ci ildə Republika sarayında keçirilən yubiley tədbirində də Namusun bir milli rəqqas kimi yüksək peşəkarlığı özünü göstərmişdi. "Cəngi" kimi bir möhtəşəm rəqsdə də N.Zöhrabov və R.Zövrabova solist kimi əzəmət nümayiş etdirmişdilər. 1992-ci ildə Almaniya səfərinə beş sənətçi-N.Zöhrabov, X.Bəşirov, F.Qəndahov, R.Zöhrabova, C.Bayramova, J.Xarabaşvili göndərilmişdi. Burada da çox böyük uğurlar qazanılmışdı.

Dövlət Rəqs Ansamblı 1994-cü ildə böyük heyətlə, iki avtobusla İran ərazisindən keşərək İraq ölkəsinə getmiş və zəngin proqramla tamaşaçıları heyrətləndirmişdi. Kollektiv səfərdən qayıdarkən Təbrizə gəlmiş və ustad Şəhriyarın qəbrini ziyarət etmişdi. 1995-ci ildə ansambl tam heyətlə İsrail ölkəsinə dəvət almış, burada keçirilən Ümumdünya Rəqs Festivalında möhtəşəm proqramla çıxışı ilə qələbə qazanmışdı. Gücü, qüdrəti, maraqlı proqramı nəzərə alınaraq əksər böyük şəhərlərdə ansamblın konsertləri təşkil olunmuşdu.



Namus bir solist olaraq kişi rəqslərinə xas bütün xüsusiyyətləri, vüqarı, əzəməti, qüdrəti, qaməti böyük ustalıqla göstərə bilən bir sənətkar kimi hər yerdə qəbul olunurdu. Səhnəyə çıxan kimi görünüşü, uca boyu, qaməti, çevikliyi, baxışı, mimikası ilə dərhal diqqəti cəlb edən N.Zöhrabovun rəqsləri tamaşaçı alıqışlarına qərq olurdu. O, hər rəqsin xarakterinə uyğun olaraq ritmik hərəkətlərin dinamikasını, süjetin mahiyyətini aça bilən, tələb olunan şərtləri yerinə yetirən usta rəqqas kimi göz önündə idi. Səhnə rəqslərinin bədii-estetik təsir gücü, səhnə simmetriyası, öz harmoniyası, hərəkətlərin sistemli əlaqəsi, bütün hallarda dinamikası var ki, bu cəhətləri nəzərə alan, yerinə yetirən sənətçilər həmişə uğur qazana, sevilə və populyarlıq qazana bilirlər. Elə rəqs ustalarımız var ki, rəqs quruluşları verən xoreoqraflar onların sənət səviyyəsini, bacarıqlı oyununu, xarakterini, duyumunu nəzərə alıb onlar üçün solo hazırlayıblar. Namus belə rəqs ustalarından biri idi. Yüksək ifaçılıq bacarığı və fəaliyyəti nəzərə alınaraq N.Zöhrabova Əməkdar artist fəxri adı verilmişdir. N.Zöhrabov 1995-ci ildə də Amerikada səfərdə olub. 1 aylıq təşkil olunan, bütün ştatlarda verilən konsertlərin müğənnisi - əməkdar artist Yaqub Zurufçu, musiqiçiləri - tarzən, xalq artisti Ağasəlim Abdullayev, kamança ifaçısı, Əməkdar artist Mirnazim Əsədullayev və bir neçə başqası olub.

N.Zöhrabov 1995-ci ildə pensiyaya çıxıb və həmin ildə Amerikaya köçüb. O, orada təhsil alaraq yeni ixtisasa yiələnib və işlə təmin olunub. Namus ötən ilin sonlarında 2-3 günlük Bakıya gələrkən fürsətdən istifadə edib onunla görüşüb söhbətləşdik.

Bu gün də rəqs mütəxəssisləri, tanınan sənətkarlar, rəqs ansambllarının rəhbərləri, N.Zöhrabovun həmkarları onun uğurlu sənətindən danışır, Azərbaycan xoreoqrafiya sənətinə verdiyi töhfələrdən söz açırlar. Axı, o, həqiqətən milli rəqs sənətinin nadir ifaçılarından biri olub.